# Azyaşlıların sosial şəbəkələrə girişi məhdudlaşdırılacaq?



## Saxta xəbərlər uşaqların narahatlığını artırır, özünəinamını zədələyir, dünyagörüşünü yanlış istiqamətə çevirir

BUgün sosial şəbəkələr ən güclü ünsiyyət vasitəsi olmaqla yanaşı, yalnız üstün cəhətlərilə deyil, zərərləri ilə də diqqəti çəkir. Fərdlərin psixoloji, sosial və fiziki sağlamlığına ciddi təsir edən sosial şəbəkələrin, xüsusilə azyaşlılar üzərində mənfi təsirləri danılmazdır. Bu təsirlərin qarşısının alınması üçün dünyanın müxtəlif ölkələrində azyaşlıların sosial şəbəkələrdən istifadəsinin məhdudlaşdırılması ilə bağlı müzakirələr aparılır. 2024-cü ildə Avropa İttifaqı (Aİ) tərəfindən rəqəmsal mühitdə istifadəçilərin təhlükəsizliyi ilə bağlı bir sıra qərarlar qəbul edilib, 16 yaşdan kiçiklərin sosial şəbəkələrdən istifadəsinin nəzarət altında saxlanması yönündə qərarlar müzakirəyə çıxarılıb. "Uşaqlar üçün daha yaxşı internet strategiyası" layihəsi çərçivəsində Aİ ərazisində uşaqlara yardım və dəstək xətləri xidməti gücləndirilib, uşaqların təhlükəsizliyinin təmin edilməsi məqsədilə beynəlxalq səviyyədə əməkdaşlıq xəritəsi hazırlanıb.

ABŞ-də istifadəçilərin sosial şəbəkələrdə təhlükəsizliyinin təmin edilməsilə bağlı məsələlər 2018-ci ildən etibarən diqqət mərkəzində saxlanılır. 2018-ci ildə ABŞ-nin Kaliforniya ştatında qəbul edilən qərarla önəmli addımlar atılıb, 13 yaşdan kiçiklərin şəxsi məlumatlarının alınması və sosial şəbəkə platformaları tərəfindən toplanması qadağan edilib. Florida ştatında 16 yaşdan kiçik yeniyetmələrin sosial şəbəkələrdən istifadəsini məhdudlaşdıran qanun layihəsi qəbul edilib. Birləşmiş Krallıq da 18 yaşdan kiçik istifadəçilər üçün etibarlı mühitin təmin olunmasını məcburi hesab edir, bu sahədə yeni qanun layihələri hazırlanır. İnternet məkanında təhlükəsizlik məsələlərini ciddi nəzarətdə saxlayan Çin 2021-ci ildə qəbul edilmiş qərarla 14 yaşdan kiçik şəxslərin sosial şəbəkələrdə keçirdiyi müddəti və bəzi platformalara girişi məhdudlaşdırıb.

Bu yaxınlarda Türkiyə Böyük Millət Məclisi Uşaq Hüquqları Komitəsi uşaqların sosial şəbəkələrin zərərlərindən qorunması ilə bağlı layihənin üzərində çalışdığını açıqlayıb. Məsələ ilə bağlı Türkiyənin İnformasiya Texnologiyaları və Kommunikasiyası Qurumu 13 yaşdan aşağı uşaqların sosial media proqramları və sosial şəbəkələrə girişini qadağan edən qanun dəyişikliyi hazırladığını bildirib.

Azərbaycanda da bu məsələ ilə bağlı vəziyyətin nə yerdə olduğunu öyrənmək üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə müraciət etdik. Komitənin əməkdaşı **Sevil Rəsulzadə** uşaqların informasiya məkanında təhlükəsizliyinin təmin edilməsi prosesində dövlətin rolu haqqında məlumat verib və internetin, xüsusilə sosial şəbəkələrin uşaqların psixoloji sağlamlığı üzərində təsirlərindən danışıb:



"Uşaqların informasiya, eləcə də kiber məkanda təhlükəsizliyinin təmin edilməsi, ənənəvi və sosial mediadan gələn zərərli təsirlərdən qorunması və kiber təhlükələrin qarşısının alınması dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Xüsusilə də onlayn medianın və internetin sürətlə yayıldığı dövrdə uşaqları zərərli məlumatlardan, foto və video görüntülərin mənfi təsirlərindən qorumaq olduqca çətindir. Bu səbəbdən də dövlət tərəfindən müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsi, maarifləndirmə tədbirlərinin miqyasının genişləndirilməsi və digər mühüm sahələrdə tədbirlər həyata keçirilir.

Bu gün informasiya texnologiyalarının və internetin geniş yayıldığı dünyada uşaqların da sosial şəbəkələrdən hərtərəfli istifadə imkanı yaranır. Nəzərə almaq lazımdır ki, internetdə informasiya heç bir senzura, qadağalar, qaydalar və reqlamentlər olmadan yerləşdirilir. Təəssüflər olsun ki, internetin təqdim etdiyi fürsətlərdən uşaqlar həm öz xeyirlərinə, həm də zərərli formada istifadə edirlər. Bu gün hamını narahat edən məsələ elə odur ki, sosial şəbəkələrə uşaqların sərhədsiz çıxışının olması onların inkişafına və fəaliyyətinə, xüsusilə də inkişaf etməkdə olan uşaq psixologiyasına ciddi zərbə vurur. Çünki sosial şəbəkələrdə yaradılan saxta profillər tərəfindən paylaşılan məlumatlar, foto və videolar, eyni zamanda uşaqların yaşına uyğun olmayan informasiyanın yayımlanması birbaşa olaraq uşaqların mənəvi-psixoloji sağlamlığına, tərbiyə və davranışlarına təsir göstərir. Bu da onların müəyyən travmalar almasına, daha da aqressivləşməsinə, dərslərdə geriləməyə, internetdən asılı vəziyyətə düşməsinə səbəb olur.

Sosial şəbəkələrdə trend halına gətirilən yanlış davranışların nümayiş etdirilməsi yetkinlik yaşına çatmayanlara olduqca mənfi təsir göstərir. Bəzi sosial şəbəkələrin ümumiyyətlə, uşaqlara heç bir xeyri yoxdur, əksinə vaxtın boşuna xərclənməsi, saxta dostluqların əldə edilməsi, yaşına uyğun olmayan kontentlərin izlənməsi kimi ziyanı var.

Araşdırmalar da göstərir ki, uşaqlar bir çox hallarda internetdə aldadılır, zorakılığa məruz qalır, texniki və sosial-psixoloji təhdidlərlə üzləşirlər. Sosial şəbəkələrdə, çat və forumlarda da yeniyetmələr təhqirlə, qeyri-etik davranışla qarşılaşırlar. Bu cür mənfi təsirlərə məruz qalan uşaqlar üçün bütün bunlar bəzən onun həyatına təsir edən və silinməyən izlər buraxan nəticələrə gətirib çıxarır.

Uşaqların internetdən istifadə səviyyəsinin ölçülməsi məqsədilə ötən il Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi ilə araşdırma aparılmış və nəticələrə dair hesabat ictimaiyyətə təqdim edilib. Tədqiqatda uşaqlarda rəqəmsal mühitdən (vasitələrdən) və onların rifahı sahəsində texnologiyadan istifadə və psixometrik inkişafları araşdırılıb. UNICEF-in 10 ölkədə apardığı sorğuda iştirak edən müəllimlərin 60%-i hesab edir ki, "saxta xəbərlər uşaqların narahatlığını artırır, onların özünəinamını zədələyir və dünyagörüşünü yanlış istiqamətə çevirir və bununla da, onların rifahına zərərli təsir göstərir".



Azyaşlıların onlayn mühitdə təhlükəsizliyinin təmin edilməsi məqsədilə mövcud qanunvericilik haqqında məlumat verən Sevil Rəsulzadə bu məsələ ilə bağlı Komitənin digər dövlət orqanları ilə əməkdaşlığından da danışıb: "Uşaqların informasiya təhlükəsizliyinin təmin edilməsi, onların ənənəvi və onlayn mediada rastlaşdıqları zərərli kontentlərdən müdafiəsi məqsədilə Ailə, Qadın və Uşaq Probemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanun hazırlanıb və 2020-ci il 1 yanvar tarixindən qüvvəyə minib.

Bundan əlavə, "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiya"da uşaqların internetdəki təhlükələr barədə məlumatlandırılması üçün tədbirlər nəzərdə tutulub.

"Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nda uşaqların zərərli informasiyadan qorunması üçün tədbirlərin gücləndirilməsi, onların internet məkanında, sosial şəbəkələrdə zərərli informasiyadan qorunması istiqamətində təbliğat-təşviqat işinin aparılması, maarifləndirici vəsaitlərin hazırlanması, informasiya təhlükəsizliyi sahəsində onların bilik və bacarıqlarının artırılması üçün təlimlərin keçirilməsi istiqamətində tədbirlər yer alır.

Azyaşlıların informasiya təhlükəsizliyi, sosial şəbəkələrdən düzgün istifadəsinin təşviqi ilə bağlı Dövlət Komitəsi bir çox dövlət orqanı ilə yaxından əməkdaşlıq edir və birgə müxtəlif maarifləndirmə təlimləri, eləcə də preventiv tədbirlər həyata keçirir. Elm və Təhsil Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Bakı Metropoliteni, Azərbaycan Hava Yolları və digərləri əməkdaşlıq etdiyimiz qurumlardır.

Müvafiq dövlət qurumları ilə birgə milli onlayn məlumatlandırma mərkəzinin yaradılması, həmin mərkəzin beynəlxalq şəbəkələrə inteqrasiyasının təmin edilməsi istiqamətində işlər də görülməkdədir.

Azyaşlıların kiberbullinqdən qoruması ilə bağlı atılan addımlardan və rəqəmsal savadlılığın uşaqların sosial şəbəkələrdən sağlam istifadəsində rolundan danışan Komitə rəsmisi qeyd edib: Hər il mütəmadi olaraq müvafiq mövzuda uşaq və valideynlərin iştirakı ilə maarifləndirici təlim və seminarlar təşkil edilir. Orta məktəblərdə uşaqların iştirakı ilə keçirilən təlimlər zamanı media və internetdə təqdim edilən foto və videoların, xəbərlərin uşaqlara zərərləri barədə məlumatlandırıcı qeyd dəftərləri və bukletlər paylanılır. Paytaxt və regionlarda davamlı olaraq, orta ümumtəhsil müəssisələrində "İnternetdən təhlükəsiz istifadə üçün maariflənək" mövzusunda maarifləndirici təlim və görüşlər təşkil edilir. Təlimlərdə internet platformasından və sosial şəbəkələrdən düzgün və təhlükəsiz istifadə bacarıqlarını inkişaf etdirmək, kiber hücumların qarşısını almaq, şəxsi məlumatların qorunmasını təmin etmək, bu sahədə hüquqi tənzimlənmə barədə məktəblilər məlumatlandırılır. Uşaqlara internetin zərərli təsirləri və onlayn məkanda yaranan təhlükə və risklərdən müdafiə üsulları, bu istiqamətdə valideyn və müəllimlərlə məsləhətləşmənin vacibliyi, şəxsi məlumatların qorunması və sosial şəbəkələrdə paylaşılmamasının vacibliyi, viruslu proqram və saytları seçə bilmə üsulları barədə tövsiyələr verilir.

**"Sosial şəbəkələrdə yaradılan saxta profillər tərəfindən paylaşılan məlumatlar, foto və videolar, eyni zamanda uşaqların yaşına uyğun olmayan informasiyanın yayımlanması birbaşa olaraq uşaqların mənəvi-psixoloji sağlamlığına, tərbiyə və davranışlarına təsir göstərir.**

**Araşdırmalar da göstərir ki, uşaqlar bir çox hallarda internetdə aldadılır, zorakılığa məruz qalır, texniki və sosial-psixoloji təhdidlərlə üzləşirlər. Sosial şəbəkələrdə, çat və forumlarda da yeniyetmələr təhqirlə, qeyri-etik davranışla qarşılaşırlar.**

**UNICEF-in 10 ölkədə apardığı sorğuda iştirak edən müəllimlərin 60%-i hesab edirdi ki, "saxta xəbərlər uşaqların narahatlığını artırır, onların özünə inamını zədələyir və dünyagörüşünü yanlış istiqamətə çevirir və bununla da, onların rifahına zərərli təsir göstərir.**

**Media savadlılığı təhsili ilə uşaqlar media mesajlarını düzgün anlaya bilərlər. Burada əsas məqsəd uşaqların baxdıqları və oxuduqları media məhsullarının real, yaxud uydurma olması barədə məlumatlılığını artırmaqdır".**

Cari ilin 5 dekabr tarixində keçirilən Azərbaycan Uşaqlarının VI Ümumrespublika Uşaq Forumlarında da uşaqların özlərinin iştirakı ilə geniş müzakirə edilən mövzular sırasında "Uşaqların internet təhlükəsizliyi - Yaşıl İKT" məsələsi xüsusi yer alıb.

Rəqəmsal texnologiyanın geniş şəkildə istifadə edildiyi zamanda internet vasitəsilə saysız-hesabsız məlumat qarşısında rəqəmsal savadlılıq məsələsi önəmlidir. Media savadlılığı təhsili ilə uşaqlar media mesajlarını düzgün anlaya bilərlər. Burada əsas məqsəd uşaqların baxdıqları və oxuduqları media məhsullarının real, yaxud uydurma olması barədə məlumatlılığını artırmaqdır. Ənənəvi, yaxud onlayn olmasından asılı olmayaraq, media uşaqlara özlərini dərk etməyə və fikirlərini sərbəst ifadə etməyə kömək etməlidir.

Son olaraq, azyaşlıların sosial şəbəkələrdən istifadəsinin məhdudlaşdırılması məsələsinə də aydınlıq gətirilib: "Azyaşlıların internet məkanında təhlükəsizliyinin təmin edilməsi üçün sosial şəbəkələrdən istifadənin məhdudlaşdırılması, xüsusilə də istifadəyə dair vaxt limitinin qoyulması müsbət nəticə verə bilər. Çünki yanlış internet istifadəsi uşaqların zorakılıq və seksual xarakterli məlumatlara məruz qalmaq, internet asılılığı, oyun asılılığı, mənfi istifadəçi davranışları, nifrət nitqi, kiberzorakılıq kimi bir çox mənfi halların inkişafına səbəb olur.

Valideyn nəzarəti ilə uşaqların sosial şəbəkələrdən istifadəsi tənzimlənməlidir. İnternet zonası olan yerlərdə uşaqların girişi üçün yaş və valideyn razılığı bölməsinin olması və ondan sonra girişin təmin edilməsi vacibdir. Valideynlərin rəqəmsal biliklərinin artırılması istiqamətində təhsil müəssisələrində, müəllim və uşaqların iştirakı ilə onlayn media sahəsində tədbirlərin, oyunların, yarışların keçirilməsi vacibdir. Eyni zamanda mütəmadi olaraq psixoloq-pedaqoqlarla uşaqların internetin təhlükələri mövzusunda aylıq statistik və analitik təhlilin aparılaraq nəticələrin dövlət qurumları ilə müzakirəsi əhəmiyyətlidir".

**Mərziyyə KAZIMZADƏ**

